# Anarı anlamaq anı

Oxuculara təqdim etdiyim bu yazını düz on il bundan öncə Azərbaycan mədəniyyətinin və ədəbiyyatının görkəmli nümayəndəsi, söz və bilim adamı Anarın 70 illik yubileyi öncəsi yazmışam.

Üstündən illər keçəndən sonra məqaləni bir də oxudum və gördüm ki, ötən dövr ərzində nə Anar müəllim dəyişib, nə də mənim fikirlərim.

Düzdü, son on ildə çox hadisələr baş verib. Anar müəllim çoxsaylı əsər və məqalələr yazıb, ölkəmizin və sosiumun aktual mövzularına yetərli münasibət bildirib. Bir neçə il əvvəl Azərbaycan Yazıçılar Birliyinin on ikinci qurultayında yenidən, özü də yekdilliklə Birliyimizin sədri seçilib. Amma bir neçə ay əvvəl sağlıq durumunun pisləşməsi üzündən onu sevənləri, dostlarını əndişəyə salıb. Açıq ürək əməliyyatı keçirib. Şükür ki, sonuc ədəbiyyatımız və bizim üçün ürəkaçan olub. İndi Anar iş başındadır və həmişə olduğu kimi, "məğrur tənhalıqda" oturub səksən yaşa doğru gedir...Yolun açıq, ömrün uzun olsun, ustad...

"Anlamaq dərdi" - Anarın Mirzə Cəlilə həsr olunmuş məqaləsinin, "Qəm pəncərəsi" - ulu sənətkar haqqında çəkdiyi filmin adıdır... Sonra "Molla Nəsrəddin-66" gəlir...Yox, mən burda tale oxşarlığı axtarmıram. Şükürlər olsun ki, Anarın xoşbəxt taleyi var və bu taleni ona tanrısı, həyatı - istedadlı valideynləri, ruhu - bəy babaları verib, adı özü qazanıb. Ömrü uzun, canı sağ olsun!

Şübhəsiz, Cəlil də xoş taleli yazardır, sadəcə biganəlik illərində "əl yazmaları yanmır" fikrinin əksini sübut eləyib. Çünki yaradıcı insanı ən soyuq qış belə üşüdə bilməz.

Anar bu biganəliyin səbəblərindən yazdı, Cəlili anlamağa çalışdı. Biz də onu anlayalım, bəylər...

Anar barədə indiyə qədər bir neçə məqalə yazmışam və onların hər biri də yazıçı həyatının konkret məqamları ilə bağlı olub. Və indi birdən-birə onun haqqında özünə layiq böyük bir fikir söyləmək istəyirəm, amma bu yükün ağırlığını çiynimdə o qədər gerçək hiss eliyirəm ki, düşündüklərimi demək üçün köklənə bilmirəm, daha doğrusu, buna çətinlik çəkirəm.

"Anar iyirminci əsrdə Azərbaycanın yetişdirdiyi mütəfəkkirlərdən biridir: Mirzə Cəlil, Üzeyir Hacıbəyli və Anar". Bu fikir mənim deyil, mən yalnız onun şərikiyəm. Onu Anarın yaxın dostlarından biri deyib.

Anar təkcə yazıçı deyil, o, bir düşüncə sahibidir. Mən bu fikri bir neçə dəfə demişəm və indi də təkrar eləməkdən yorulmuram: Anar Azərbaycan xalqının milli azadlıq düşüncəsinin, milli təfəkkürünün, əxlaqının formalaşmasında ən böyük rolu olan aydınlarımızdandır.

O, oxucularına, mən də qarışıq, "Beş mərtəbəli evin altıncı mərtəbəsi" povesti, "Dədə Qorqud" filminin ssenari müəllifi kimi doğmadırsa, fikir, düşüncə adamları üçün, yenə də mən qarışıq, "Min beş yüz ilin oğuz şeri", "Dədə Qorqud ensiklopediyası", "Azərbaycançılıq", "Ağ qoç, qara qoç" kimi əsərlərilə, mədəniy-yətimiz haqqında çoxsaylı qanunların müəllifi kimi qiymətlidir.

Anar bir proqramçıdır. Millətinin yolunu müəyyən eləyən, onun gələcəyini proqnozlaşdırmağı bacaran yazardır.

Şübhəsiz, maraqlı və diqqətli oxucum da ilk sətirlərdən anladı ki, bu məqalədə məqsədim Anarın yaradıcılığını təhlil eləmək, akademik fikirlərimi bölüşdürmək deyil, yalnız ustad yazar haqqında düşüncələrimi dilə gətirməkdir.

Bir şəxslə yol yoldaşı olmadan, onunla oturub-durmadan, söhbət eləmədən xasiyyətini öyrənmək olmaz. Məntiq pis məsləhətçi olduğu kimi, müşahidələr də aldadıcı ola bilər. Mən demirəm ki, anadan olandan Anarla bir yerdəyəm, ya elə hər gün onunla oturub-dururam. Amma tam səmimi deyim ki, ustad yazarımızla müəyyən zamanlarda bir yerdə olmaqdan, səfər eləməkdən, fikir bölüşməkdən böyük həzz almışam və böyük düşüncə sahibimizlə söhbətlərimizin əks-sədası hələ bir müddət, bəlkə də ömrümün sonuna kimi beynimdə, ürəyimdə səslənəcək.

Elə xasiyyət var ki, insanla birgə doğulur, eləsi də var ki, onu kimdənsə öyrənirsən. Məsələn: gözü toxluğu, təmkini, əxlaqı, düz danışmağı və s. Mən Anar müəllimin gözütoxuluğunun da, təmkininin də, əxlaqının da, daim düz danışdığının da şahidi olmuşam. Ola bilər, bəlkə elə nəsnələr var ki, Anar onlar haqqında düzünü demək istəmir, amma yalan da danışmır. Görünür, o, müdrik bir kəlamı çoxlarından mükəmməl mənimsəyib: "Yalan danışmaq qəbahətdir, amma hansısa ali məqsədlər naminə həqiqəti deməmək olar".

Anar vəzifəcə özündən böyüklə necə danışmağın, vəzifəcə özündən aşağıda olanlarla necə davranmağın yollarını bilir. Bizə isə öyrənmək qalır. Hələ iş yoldaşlarından bir kimsə Anarın qəbulunda gözləməyib. Gələn icazəsiz-filansız içəri keçir. Bu o deməkdir ki, Anarın kimdənsə gizli bir işi yoxdur...

Bir də görürsən, pul kisəsini itirmiş qoca bir qadın Yazıçılar Birilyinə gəlir və deyir ki, Anar müəllimə şikayət edəcəm, qoy, polis rəisinə tapşırsın, pulumu tapıb versinlər... İnsan kiminsə ümidlərini qırmamalıdır. Ümid fərdi məsələ deyil, ümumxalq, ümümubəşəri işdir.

Anar heç zaman "bu işi mən elədim" demir, "biz elədik" deyir və bununla da böyük bir icma təfəkkürünə sahib olduğunu nümayiş edirir. İcma - köhnə yaraları sağaltmaq, barışığa körpü atmaq bacarığıdır.

Anar gözütoxluğu öyrənmək istəyənlər, ya heç olmasa, məşq eləmək meylində olanlar üçün bir örnəkdir.

Onun gözü toxluğunda bir sufilik, bir ürfanilik var. Bu o demək deyil ki, Anarın həyatdan, insanlardan, dünyadan umacağı yoxdur. Sadəcə o, "nəfislə cihad ən böyük şəhidlikdir" deyimini bir gerçəklik kimi qəbul edən, ona tapınan insandır. Çünki bu, bir gen məsələsidir.

Anarın valideynlərini çağdaş nəsil tanıyır, heç olmasa adlarını eşidib, şeirlərini oxuyublar. Amma onun Gəncədə ilk maarifpərvər ziyalılardan biri, öz vəsaitinə məktəb açmış Ələkbər Rəfibəylinin nəticəsi, general Xudadat bəyin nəvəsi olduğunu bilmirlər. O, babalarının bəyliyini, valideynlərinin istedadını məharətlə əxz edib.

Bu yaxınlarda hörmətli professor Yaqub Mahmudlu Az.TV-nin "Səhər" proqramında Azərbaycan tarixilə bağlı xəritənin 60-cı illərdə hansı əziyyətlərlə nəşr etdiklərini danışanda Rəsul Rzanın böyük əməyini, iradəsini vurğulayırdı. Ermənilərin əlinin hər yerə çatdığı bir zamanda bu müşkül məsələydi. İnsan kökə bağlıdır. Anar da öz kökünə sadiq ziyalıdır.

Hələ Moskvada tələbəykən Anarın "Beşmərtəbəli evin altıncı mərtəbəsi" povestini oxumuşdum və bu barədə öz gündəliyimdə qeydlər eləmişdim. İndi də o fikirdəyəm ki,

Anarın həmin əsəri dünya kitabxanasında yüksək yerlərdən birinə layiqdir. Mən o kitabı və onun yerini nəinki təsəvvür eləyir, hətta görürəm də. Almaniyalı yazarımız Orxan Aras ədəbiyyatımızın dünyadakı yerindən danışarkən bu fikri xüsusi vurğulamışdı.

Bəzi ağzıgöyçəklər "bizim ədəbiyyatımız Biləcəridən o yana getməyib" - deyə hayqırır və hər bir əsərin dəyərini "Nobel" mükafatı alıb-almaması ilə ölçür. Dünyada bu mükafata layiq olan yüzlərlə yazıçının adını çəkmək olar. Məsələn: Əziz Nesin, Yaşar Kamal, Meşa Selimoviç, Çingiz Aytmatov və s. Amma başa düşmək lazımdır ki, bu da bir siyasətdir və ona sahib olmaq üçün külli miqdarda vəsait, başlıcası isə həvəs lazımdır. Yeri gəlmişkən, Anarın həmyaşıdları və dostları Oljas Süleymenov, Çingiz Aytmatov türk dünyası və öz xalqlarının mədəniyyətində qoyduqları izlər baxımından Anarla müqayisəyə gəlməzlər. Anar onlardan daha çox iş görüb, amma rus dilində yazdıqlarından böyük rus-sovet məkanında məşhurlaşmışdılar. Anarın təşəbbüsü ilə Dədə Qorqud dastanının min üç yüz illiyinin Bakıda keçirilməsi də buna sübutdur.

Anarın "Dantenin yubileyi"ndə yaratdığı Kəbirlinski obrazını dünya ədəbiyyatının ən maraqlı və yadda qalan personajı kimi xatırlayıram.

Anar fəxr edir ki, sovet ziyalıları, o cümlədən də onun valideynləri rus dilinin dəb olduğu zamanlarda ana dilini qoruyub saxlayıblar, çünki övladlarını rus məktəblərində yox, Azərbaycan məktəblərində oxudublar.

Ustad yazar çox gözəl bilir: elə adamlar var ki, nə qədər yaxşılıq eləsən də, azdır. Çünki bir dəfə yaxşılıq edə bilməyəndə "o, mənə pislik etdi" deyəcək. Ona görə də hərdən bədbinləşir.

Anar haqqında bəzən əlinə təzəcə qələm almış, işin mahiyyətindən xəbərsiz cızma-qaraçılar elə hədyanlar yazırlar ki, adamın onların cılızlığına acığı tutur. Bu insanlar öz haqlarını (əgər varsa) almağa tələsirlər. Onlara elə gəlir ki, anadangəlmə dahi doğulublar və kimlərisə söyməklə, ona böhtan atmaqla böyüyəcəklər. Sadəcə anlamırlar ki, Azərbaycan xalqı, mədəniyyəti və ədəbiyyatı üçün təmənnasız xidmətlər göstərmiş bir yaradıcı insanın qanını qaraltmaqla dünyanı bir az da bədbinləşdirir və qaranlıqlaşdırırlar.

Qarğalar dəstə ilə gələndə Günəşin də üzünü örtə bilirlər. Amma bütün bunlar müvəqqətidir, bir anlıq uçuş məsafəsindədir və ötəridir.

Anar bir adama etibar edəndə, ona səlahiyyətlər də verir. Əfsuslar ki, bəzən kimlərsə bundan sui-istifadə edir. Bu, bir vicdan məsələsidir. Amma Anar hər şeyi görür və qiymətləndirir.

Ustad yazarımızın oğlu Tural, qızı Günel də yazıçıdır. Onlar haqqında söz düşəndə Anar deyir: "Atam, anam mənə həyatda istədiklərimi verib, amma hər şeyə özüm nail olmuşam. Mən də çalışmışam ki, övladlarıma bacardığım qədər kömək edəm. Həyatda isə özləri özlərinə yer tapmalıdırlar". Onların Yazıçılar Birliyinə üzvlük məsələsindən söz düşəndə "Məndən sonra istəyərlər üzv olarlar, istəməsələr yox" deyir.

Bəzən Anarı ehtiyatlılıqda qınayırlar. Bu cür adamlar anlamırlar ki, ziyalı ehtiyatlı olmalıdır. Çünki o, millətinin gələcəyinin qayğısını çəkir, dediyi fikrin məsuliyyətini dərk edir. Həddən artıq radikallıq həmişə bizə baha başa gəlib: Meydanlarda "Topxana" qışqırdıq - Qarabağ getdi. "Azadlıq" qışqırdıq - hüquqlarımız tapdandı. Çünki insana azadlıq yox, hüquq vacibdir. Yadınızdadırmı: bir qrup ziyalı Şuşaya səfər etmişdi. Onda bəndəniz də qarışıq onların addımını dəstəkləmişdi, bəziləri isə tam əksinə çıxmışdı. Anar isə fərqli mövqedəydi: "Mən bu səfərlərin əleyhinə deyiləm. Sadəcə, mənə elə gəlir ki, səfərin yeri və zamanı düz seçilməyib".

“İyirminci əsr altmışıncıların, iyirmi birinci əsr doxsanıncılarındır”. Bu fikri də Anar deyib. Amma o zaman da bizim ədəbi nəslin bəzi nümayəndələri bu fikri düzgün anlamamışdılar. Yenə də qisməti, payı zamanından qabaq almaq istəyi, yenə də əlahəzrət şöhrətpərəstlik. Halbuki şöhrət çox iyrənc bir şeydir, çünki adamı ictimai rəydən asılı edir. Bunu mən deməmişəm, bunu ta qədimlərdə Seneka aləmə car çəkib.

Yaradıcı adam yazmalıdır, onu-bunu təftiş eləməli deyil. “Hər kəs öz əsərilə ədəbiyyat meydanında qalacaq və o meydanda hamıya yer var”. Anarın bu fikrini inkişaf elətdirsəm, mən də belə deyərdim: “Ədəbiyyat okean kimidir, orada balaca balıqlara da, balinalara da yer var. Sadəcə hər kəs öz çəkisinə, aurasına uyğun üzəndə okean qorxulu nəhrə yox, aydın və gözəl səmaya oxşayır”.

Anar dostluğa sədaqətlidir. O qədər sədaqətlidir ki, hətta altmışıncı illərdə sevdiyi müğənnilərə yenə də eyni həvəslə qulaq asır. Sirr üçün deyim ki, Anara hədiyyə eləmək istəsəniz, həmin dövrün türk-azəri müğənnilərinin kasetlərini ona bağışlayın.

Anar ədəbiyyatımızın atlantlarından, mədəniyyətimizin memarlarından, mənəviyyatımızın güzgülərindən biridir. İstənilən səviyyədə, istənilən müstəvidə danışıqlar aparmaq üçün ona etibar eləmək, güvənmək olar. Bu cür adamlar dünyada barmaqla sayılasıdır.

Martın 14-də ustad yazarımızın 70 yaşı tamam olur. Və mən inanıram ki, Azərbaycan dövləti durduqca, Azərbaycan xalqının ürəyi döyündükcə, nəfəsi gəldikcə sağlığında heykəlləşmiş Anar da yaşayacaq.

Qulağıma gurultulu alqış sədaları gəlir. Bu, Anarın şərəfinə böyük salonlarda düzənlənən tədbirlərin, onu sevən oxucularının və dostlarının səsidir. Onların arasında mənim də səsimin olmasıyla qürur duyuram...

**Elçin HÜSEYNBƏYLİ**

**525-ci qəzet 2018.- 10 fevral . - S.21.**